**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№351/2** **07 dekabr 2022-ci il**

**Azərbaycan Respublikasının Auditorlar Palatası ilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti arasında əməkdaşlıq sazişinin imzalanması barədə**

Azərbaycan Respublikasının Auditorlar Palatası sədrinin 2022-ci il 25 may tarixli 1/20 nömrəli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Auditorlar Palatasının üzvləri olan auditor təşkilatları və sərbəst auditorların dövlət satınalmalarında iştirakları ilə əlaqədar əlavə işlərin görülməsinə dair tədbirlər planı”nın 1-ci “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti ilə əməkdaşlıq sazişinin imzalanması istiqamətində tədbirlərin görülməsi” bəndinin icrasını təmin etmək məqsədilə Auditorlar Palatası sədrinin müşaviri F.Qarayev və Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinin Haqsız rəqabətə qarşı mübarizə şöbəsinin müdiri R.Cəfərli tərəfindən hazırlanmış əməkdaşlıq sazişinin layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikasının Auditorlar Palatası ilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti arasında imzalanacaq əməkdaşlıq sazişinin layihəsi bəyənilsin (əlavə olunur).

2. Auditorlar Palatasının icraçı direktoru S.Gülməmmədova və Palata sədrinin müşaviri F.Qarayevə tapşırılsın ki:

2.1. bir ay müddətində əməkdaşlıq sazişinin layihəsinin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə göndərilməsini və həmin qurumla razılaşdırılmasını təmin etsinlər;

2.2. əməkdaşlıq sazişinin imzalanması ilə əlaqədar digər təşkilati işləri həyata keçirsinlər.

3. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novuzov**